BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaCeram®-4

(köhnə adı MTile 4)

İncə təbəqə üsulu ilə tətbiq edilən sement əsaslı kafel-metlax və plitə yapışdırıcısı

## TƏSVİR

SikaCeram®-4 keramika plitə və kafellərin incə təbəqə üsulu ilə yapışdırılması üçün su əlavə edilməklə istifadəyə hazır vəziyyətə gətirilən sement əsaslı plitə yapışdırıcısıdır.

## İSTİFADƏ YERLƏRİ

İncə təbəqə üsulu ilə su hopduruculuğu yüksək olan keramik plitələrin yapışdırılmasında istifadə edilir. Su hopduruculuğu az olan plitələr və digər səthlər üçün (hopdurucu olmayan, parlaq, köhnə örtüklü) Sika Ceram® çeşidindən başqa bir yapışdırıcı istifadə edilməlidir.

SikaCeram®-4 istifadə səthləri:
- Beton, suvaq, mineral səthlər.
- 28 günlük müqavimətini almış açıq strukturlu beton səthlər
- Daxili məkanların divar və döşəmələri.

## ÜSTÜNLÜKLƏRİ

- Asan qarışdırma və istifadə olunması
- Qənaətcil və sərfəli olması
- Beton, suvaqlı və mineral səthlərdə istifadə
- Hopduruculu plitə, kərpic, AAC hörgü blokları yapışdırıcısı
- Yüksək qarışım suyu tutma xüsusiyyəti

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Xüsusi əlavələrlə modifikasiya edilmiş sement əsaslı toz qarışığı |
| **Qablaşdırma** | 25 kg torba |
| **Görünüş və rəng** | Boz, toz |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Açılmamış və zədələnməmiş qablaşdırmada, +5°C ilə +35°C temperatur aralığında, quru anbar şəraitində saxlanılmalıdır. Günəş şüalarından, nəmdən və şaxtadan qoruyun. |
| **Sıxlığı** | Təzə qarışımın sıxlığı: ~ 1.6 kg/lt (+20°C-də) |

## TEXNİKİ MƏLUMATLAR

**Dartma yapışma gücü**

| | Dəyər | EN 12004-1, Sinif C1 Tələbi | (EN 12004-2) |
|---|---|---|---|
| Standard tətbiq | ≥ 0.5 N/mm² | ≥ 0.5 N/mm² | |
| Suda saxlama sonrası | ≥ 0.5 N/mm² | ≥ 0.5 N/mm² | |
| Açıq gözləmə müddəti sonrası (20 dəq) | ≥ 0.5 N/mm² | ≥ 0.5 N/mm² | |

## TƏTBİQ MƏLUMATI

**Qarışdırma nisbəti**

25 kq torba üçün 5.50 – 6.00 litr su (Su/Toz nisbəti: 0.22 – 0.24)

**Sərfiyyat**

İstifadə miqdarı səthin profilindən, hamarlığından, yapışdırılacaq kafellərin ölçü və yapışdırma üsulundan asılı olaraq dəyişir. (Tək səthə və ya plitə və səthə çəkmək üsulu)
Standard tətbiq təlimatı olaraq:
1m² sahədə 1mm qalınlıq üçün 1.5 kg toz tələb olunur.
Kiçik ölçülü plitələr üçün (tərəf ≤30 sm) kiçik düzbucaq kəsikli mala ölçüsü(4 - 6 mm) istifadə edin və orta ölçülü plitələr (tərəflər≤45 sm) mala (6 - 8 mm) və böyük plitələr (tərəf ≤60 sm) üçün mala 8 - 10 mm istifadə edilməlidir.

Bu rəqəmlər nəzəri xarakter daşıyır və rəqəmlərə səthin məsaməliliyinə, səth profilinə, səviyyə dəyişikliyinə, israfa və ya hər hansı digər dəyişikliklərə görə hər hansı əlavə material daxil deyildir. Xüsusi səth şərtləri və tövsiyyə olunan tətbiq üsul və alətlərinə bağlı dəqiq istehlakı hesablamaq üçün məhsulu sınaq sahəsinə tətbiq edin. Yuxarıdakı istehlak göstəricisi az kobudluğa malik hamar səth üzərinə vetrifikasiya olunmuş və ya olunmamış plitələrin tətbiqi üçün verilmişdir.

**Təbəqə qalınlığı**

Min. 3 mm / Maks. 5 mm

**Ətraf mühit temperaturu**

Min. +5°C min. / Maks. +35°C

**Səthin temperaturu**

Min. +5°C / maks. +35°C

**İstifadə müddəti**

≈ 20 dəqiqə (+20°C-də)

**Tətbiq müddəti**

~ 2 saat (+20°C-də)

**İstismara hazır olma zamanı**

| | |
|---|---|
| Dərz Dolğu tətbiqi | ~24 saat sonra |
| Yüngül piyada keçidi | ~24 saat sonra |
| Yük dayanıqlığı | ~7 gün |
| Tam bərkimə | ~28 gün sonra |

Laboratoriya şəraitində müəyyən edilən dəyərlər: +20°C ± 2°C, Nisbi Rütubət 50 % ± 5 %.
Daha yüksək temperaturlar göstərilən gözləmə vaxtlarını azaldacaq, aşağı temperaturlar göstərilən gözləmə müddətini artıracaq.

**Tənzimlənmə müddəti**

≈ 30 dəqiqə (+20°C-də)

## SİSTEM MƏLUMATI

**Sistem strukturu**

Normal şəraitdə sement əsaslı səthlərdə heç bir astar tələb olunmur. Bununla belə, çox yüksək hopdurucu səthlər (alçı gips suvaqlı divarlar) və ya hopduruculuğu olmayan səthlərdə istifadə ilə bağlı Sika Texniki Xidməti ilə əlaqə saxlayın.

# MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- 28 günlük müqavimətini almiş səthlərə tətbiq edilməlidir.
- Qarışımın su miqdarı tövsiyyə olunan miqdarı aşmamalıdır.
- Doğru hazırlanmış səthlərə tətbiq edilməlidir.
- Bildirilən maksimum tətbiq qalınlığı aşılmamalıdır.
- Yeni tətbiq, günəşə, yağışa və şaxtaya qarşı muhafizə edilməlidir.
- Çox hopduruculu səthlərdə SikaWall® astardan istifadə edilməlidir.
- Hava teperaturundan asılı olaraq kürlənmə müddəti azala və ya arta bilər.
- Plitələrin nəmləndirilməsi tövsiyyə olunmur.
- Plitə yerləşdirilmədən öncə çəkilmiş yapışdırıcı təbəqəsi üzərində yapışma azaldıcı film təbəqəsinin əmələ gəlmədiyindən əmin olunmalıdır.

SikaCeram®-4 aşağıdakı şərtlərdə istifadə olunmamalıdır:

- Boyalı və ya metal səthlərdə
- Altdan isitməli döşəmələrdə istifadə olunmamalıdır.
- Parlaq səthli plitə və şüşə mozaika
- Sulu səthlər və üzgüçülük hovuzlarında
- Təbii Daş plitələrin yapışdırılmasında
- Xarici məkanlarda
- Gips suvaqları və astarlanmamış gips lövhələri
- Böyük ölçülü plitələrdə (tərəf >60cm)

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

## AVADANLIQ

Layihə üçün ən uyğun alət və avadanlıqlar seçilməlidir:

**Səth hazırlığı avadanlıqları:**

- Taşlama avadanlığı
- Aşındırıcı avadanlıq
- Elektrikli yuyucu avadanlıq
- Qumlama avadanlığı

**Qarışdırıcı:**

- SikaCeram®-4, elektrikli qarışdırıcıdan istifadə etməklə təmiz qabda qarışdırılmalıdır. Beton qarışdırıcıdan istifadə edilməməlidir.

**Tətbiq avadanlığı:**

- Çeşidli ölçülərdə dişli malalar

## SƏTHİN KEYFİYYƏTİ

Səthin minimum yaşları:

- SikaLevel® çeşidi – 3 günlük
- Sement bağlayıcılı səthlər - 28 günlük

Qeyd: Döşəmənin quruma müddəti şapın qalınlığından və ətraf mühit şərtlərindən asılıdır. 28 günlük müddətdən əvvəl müraciətlər üçün Sika-nın Texniki Xidmət Departamenti ilə əlaqə saxlayın.
Yeni çəkilmiş sement şaplarında qalıq rütubət 4%-dən, anhidrit və/yaxud gips əsaslı şapların 0,5%-dən çox olmaması lazımdır (CM-metrlə ölçülür).

## SƏTH HAZIRLIĞI

Zəif parçacıqlar, aşağı adgeziyalı beton təbəqəsi və səthdəki sement şərbəti çıxarılmalıdır. Çat və boşluq kimi qüsurlar aşkar edilməlidir. Məhsulu tətbiq etməzdən əvvəl səthdəki toz və digər zəif materiallar fırça və ya tozsoran ilə təmizlənməlidir. Zəruri təmir işləri, çatlar və boşluqların doldurulması Sika MonoTop® təmir materialı çeşidlərindən müvafiq olanı ilə və ya sahədə Sika Latex əlavə edilərək hazırlanan qarışım ilə həyata keçirilməlidir. Təmir işlərindən sonra keramika plitələri yapışdırmaq üçün 24-48 saat gözləmək lazımdır. Səth çox məsaməli olarsa və ya yüksək temperatur/aşağı rütubət olan şəraitlərdə səthi nəmləndirmək məsləhət görülür. Səthdə artıq su qalmamasına diqqət edilməlidir.
Səthdəki səviyyə fərqi 2 metrdə 5 mm-dən az olmalıdır. Zəruri olduğu halda səthin əyriliyi tətbiqdən əvvəl SikaLatex® əlavəli qarışımlar və səth hamarlayıcı materiallarla düzəldilməlidir.

## QARIŞDIRMA

- Topaqsız, yekcins qarışım əldə etmək üçün bildirilən miqdarda təmiz su qarışdırma qabına qoyularaq spiral avarlı elektrikli qarışdırıcı ilə ən az 3 dəqiqə qarışdırılır.
- 500rpm-dən (rpm-dövr/dəqiqə) aşağı sürətli qarışdırıcıdan istifadə edilməlidir; daha sürətli qarışdırıcı ilə qarışdırmayın.
- Qarışdırmaya minimum tövsiyə olunan su miqdarı ilə başlayın (su/toz nisbəti), yalnız tələb olunarsa, tədricən istədiyiniz tutarlılığı əldə edənədək qalıq su miqdarını əlavə edin. Bildirilən maksimum su həddini aşmayın.
- Alınan qarışım çox yumuşaq tutarlılıqda, asanlıqla yayılan və tiksotrop olmalıdır.

## TƏTBİQ

SikaCeram®-4, daraqlı mala vasitəsi ilə tətbiq edilir. Lazımı tətbiq qalınlığı üçün doğru mala ölçüsü seçilməlidir
Nümunə olaraq:

- 5x5cm ölçülü mozaika üçün 3 mm dişli mala .
- Orta ölçülü plitələr üçün 6 mm dişli mala.
- Böyük ölçülü plitələr üçün 9 mm dişli mala.
- 900 cm²-dən böyük plitələr və ya sərt tələblər üçün (cilalanacaq plitələr, ağır yüklər və s.) hər iki səthə yapışdırıcı çəkmək ilə tətbiq olunmalıdır.

SikaCeram®-4, kiçik hissələr olaraq səthə malanın düz tərərfi ilə eyni qalınlıqda çəkilməli, sonrasında malanın

dişli tərərfi ilə düzgün olaraq sıyırılmalıdır . Plitə səthə basdırılaraq yerləşdirilir və tənzimlənir. Plitə səthinin yapışdırıcı ilə təması 80%-dən çox olmalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadə etdikdən sonra bütün alət və avadanlıqları su ilə dərhal təmizləyin. Sərtləşmiş material yalnız mexaniki yolla təmizlənir.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12